# Məktəbdənkənar iş X-XI sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması vasitəsi kimi

**Emilya Hüseynova**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** emilya.huseynova95@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d. L.A. Məmmədli

**Açar sözlər:** məktəbdənkənar iş, məktəblilər, vətəndaşlıq, vətəndaşlıq mövqeyi, fəal vətəndaşlıq mövqeyi, fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması

**Ключевые слова:** внешкольная работа, школьники, гражданство, гражданственная позиция, активная гражданственная позиция, формирование активной гражданственной позиции

**Key words:** extracurricular activities, schoolchildren, citizenship, citizenship position, active citizenship position, the formation of an active citizenship position

Yuxarı sinif şagirdlərində fəal həyat mövqeyinin formalaşdırılmasında və inkişaf etdirilməsində məktəbdənkənar tədbirlərin özünəməxsus rolu vardır.

Məktəblə yanaşı məktəbdənkənar müəssisələr də (Uşaq kitabxanaları, rayon (şəhər) mərkəzi kitabxanaları, tarix-diyarşünaslıq muzeyləri, uşaq və məktəblilərin yaradıcılıq evləri və sarayları, gənc təbiətçilər və gənc texniklər stansiyaları, uşaq teatrları, məsələn, Gənc Tamaşaçılar Teatrı, Uşaq-Gənclər İdman Məktəbi, Gənc Turistlər Stansiyası və s.) yeniyetmə və gənclərlə təhsil-tərbiyə işləri təşkil edirlər.

Şagirdlərlə dərsdən əvvəl, yaxud sonra məktəb, sinif rəhbəri, kitabxanaçı, məktəb psixoloqu, gənclər təşkilatı, uşaq birliyi, fənn müəllimi tərəfindən şagirdlərlə aparılan rəngarəng məzmunlu və müxtəlif formalı tədbirlərə sinifdənxaric iş deyilirsə, məktəbdən kənarda müəssisə və təşkilatların uşaq, yeniyetmə və gənclərlə apardıqları çoxşaxəli təhsil-tərbiyə işi məktəbdənkənar iş adlanır.

Məktəbdənkənar iş məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin tərbiyə olunmasının mühüm vasitəsi olub aşağıdakı vəzifələrə malikdir:

— şagirdlərin vətənpərvərlik hissələrini qüvvətləndirmək;

— məktəblilərə fəal vətəndaşlıq mövqeyi aşılamaq;

— təhsilalanlarda milli ləyaqət, milli şərəf hisslərinin təşəkkül tapıb formalaşmasıma yardımçı olmaq;

— şagirdlərin müstəqilliyinə, idrak fəallığına, təşəbbüskarlığına, özünüfəaliyyətinə, özünüidarəsinə, özünütərbiyəsinə və özünütəhsilinə nail olmaq;

— məktəblilərin fərdi yaradıcı qabiliyyətlərini inkişaf etdirmək;

— təhsilalanların sağlamlığının möhkəmləndirilməsi məqsədilə asudə vaxtlarını, istirahətlərini, əyləncələrini səmərəli, mənalı və məzmunlu təşkil etmək və s. və i.a.

Sinifdənxaric iş kimi məktəbdənkənar iş də tədris məşğələlərinə əlavə bir iş kimi nəzərdə tutulur, böyük təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici funksiyalara malikdir.

Məktəbdənkənar işin mühüm rolunu bunda görmək olar ki, sinifdənxaric tədbirlər kimi o da təlim prosesində qazanılmış bilik və məlumatların zənginləşməsinə, həyati bacarıqların

inkişaf etdirilməsinə yönəlir. Təlim-tərbiyə sahəsində məktəbdənkənar işin rolu və əhəmiyyəti onunla müəyyən olunur ki, o, məktəblilərin, o cümlədən X-XI sinif şagirdlərinin müstəqilliyinin, yaradıcı fəallığının və özfəaliyyətinin inkişafını təmin edir.

Şagirdlərlə söhbətlər aparılarkən, onların qarşısında çıxışlar edərkən, məruzə və mühazirələrin tematikasını və məzmununu müəyyənləşdirərkən, oxucu konfransları təşkil edərkən, məktəb gecələrinin proqramını hazırlayarkən, oyun, yarış və müsabiqələr keçirərkən yadda saxlamaq lazımdır ki, bütün bu tədbirlər uşaqlarda vətənpərvərliyin, doğma vətənə şüurlu məhəbbəti, milli iftixar hissini, vətəndaşlıq borcu və ləyaqəti tərbiyə edilməlidir.

Məktəbdənkənar işdə qəhrəman keçmiş və müasir gəncliyin hünərləri şagirdlərə izah olunmalıdır. Məktəbdənkənar iş təhsilalanlarda Azərbaycan vətəndaşının yüksək mənəvi keyfiyyətlərini formalaşdırmalıdır. Aşağıdakılardan faydalanmaq böyük ideya-tərbiyəvi əhəmiyyət daşıyır:

— Azərbaycan ədəbiyyatının və mədəniyyətinin incilərindən yuxarı sinif şagirdlərində fəal həyat mövqeyinin formalasdırılması məqsədi üçün faydalanmaq;

— xalq yaradıcılıq xəzinəsinə — xalq mahnılarına və nağıllarına, bayatılarına, laylalarına, əzizləmələrinə, bayatılarına, atalar sözlərinə və məsəllərinə, xalq mahnılarına və oyunlarına müraciət etmək;

— görkəmli şəxslərin həyat və fəaliyyətindən nümunələr götürmək;

— qəzet və jurnal məqalələrindən faydalanmaq;

Məktəblilər, o cümlədən yuxarı sinif şagirdləri sinifdənxaric və məktəbdənkənar tədbirlərini köməyi ilə həm də ictimai həyatda yaxından iştirak edirlər. Məktəbdənkənar iş məcburi xarakterə malik deyildir. Təhsilalanlar onları cəlb edən, maraqlandıran tədbirlərə istədikləri halda qoşulurlar. Belə olan təqdirdə onların özfəaliyyəti və təşəbbüskarlıqları da yüksəlir.

Şagirdlərlə məktəbdənkənar təhsil-tərbiyə işlərinin aparılmasında uşaq kitabxanaları və rayon (şəhər) mərkəzi kitabxanaları özünəməxsus rol oynayır. Haqqında danışan kitabxanalar ümumtəhsil məktəbləri ilə birgə fəaliyyət, sıx əməkdaşlıq şəraitində müxtəlif tədbirləri həyata keçirirlər. Həmin tədbirlərə aiddir: yazıçı və şairlərlə görüşlər, kitab müzakirələri, disputlar, əlamətdar günlərin qeyd olunması və s.

İlk növbədə şagirdlərin kitabxanalara üzv yazılmalarına, eyni zamanda kitabxanaların təşkil etdikləri müxtəlifyönlü tədbirlərdə onların fəal iştirakına nail olunur. Vətəndaşlığın, vətənpərvərliyin, milli ləyaqət, milli iftixar və milli şərəf hislərinin aşılanmasına və inkişaf etdirilməsinə kömək göstərəcək kitabları oxumaq məktəblilərə, o cümlədən yuxarı sinif şagirdlərinə məsləhət görülür.

Kitabxanalarda Bəxtiyar Vahabzadənin “Gülüstan”, E. Xəzərin “Mübariz” poemaları, eyni zamanda son dövrlərdə qələmə alınmış Ağarəhimin “Canavar balası”, “İkili dünyam”, A. Abbasovun “Samsundan başlanan yol”, A. Abbasın “Dolu”, E. Eyyubovun “Qırx beş gün cəhənnəmdə”, Y. Əhmədovun “Torpağa tökülən qan”, F. Güneyin “Qara qan”, N. Məmmədlinin “Vicdan dustağı” romanları, müzakirə olunmuşdur. Azərbaycanın müstəqilliyinə qəsd etmək istəyənlərin törətdiyi qara yanvara – 20 yanvar hadisələrinə həsr edilmiş tədbirdə Bəxtiyar Vahabzadənin “Şəhidlər” şeiri səslənmişdir. Diqqət yetirək:

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi Şəhidlər,
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən torpağına çəkdi Şəhidlər...

Zalım öyünməsin zülümləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə,
Ölümü kamına çəkdi Şəhidlər...
Yıxıb köləliyi ürəyimizdə

Cəsarət mülkünü tikdi Şəhidlər...
İnsan insan olur öz hünəriylə.
Millət, millət olur xeyri, şəriylə,
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi Şəhidlər.

Məktəbdənkənar iş məzmununa görə təlim prosesindən fərqlənə, yaxud fərqlənməyə, dərsdə baxılan məsələlərin zənginləşdirilməsinə, genişləndirilməsinə və möhkəmləndirilməsinə şərait yarada bilər.

Məzmununa görə fərqlənmədikdə, məsələn, X sinifdə "Salur Qazanın evinin yağmalanması" boyu keçilərkən, şagirdlərin kino-teatra gedişləri təşkil olunur. Anarın ssenarisi, T. Tağızadənin quruluşçu rejissor olduğu, H. Qadoyevin – Qazan xan, H. Məmmədovun – Dədə Qorqud, R. Balayevin – Beyrək, G. Toxadzenin – Alp Aruz, Ş. Məmmədovanın – Burla xatun, L. Şıxlinskayanın – Banuçiçək rollarını ifa etdikləri "Dədə Qorqud" filminə şagirdlərin baxışı təşkil olunur.

Nizami Gəncəvinin həyat və yaradıcılığı öyrənilərkən, imkan daxilində, "Nizami" filminə (ssenari müəllifləri İ. Hüseynov və E. Quliyev, rejissor E. Quliyev, Nizami rolunun ifaçısı – M. Maqomayev); "İmaməddin Nəsiminin həyatı, yaradıcılıq yolu" mövzusu tədris olunarkən "Nəsimi" bədii filminə (ssenari müəllifi – İ. Hüseynov, rejissor – H. Seyidbəyli, rollarda: R. Balayev – Nəsimi, İ. Osmanlı – Nəimi, S. Rzayev – Şirvanşah I İbrahim, M. Şeyxzamanov – Şeyx Əzəm); "Məhəmməd Füzulinin həyatı, yaradıcılıq yolu"nun tədrisi zamanı "Leyli və Məcnun" filminə (ssenari müəllifi – Ə. Məmmədxanlı, rejissor – L. Səfərov, Qeys – N. Şaşıqoğlu, Leyli – K. Məmmədova, Şeyx Əmiri – Ə. Ələkbərov, Şeyx Haşimi – Ə. Zeynalov); "Koroğlu eposu" nəzərdən keçirilərkən "Koroğlu" filminə (ssenari müəllifi – S. Rəhman, rejissor – H. Seyidzadə, Rövşən (Koroğlu) rolunda – Ə. Məmmədov); "Mirzə Fətəli Axundzadənin həyatı, yaradıcılıq yolu" mövzusunun tədrisində - "Sübhün səfiri" (2012, ssenari müəllifi – Anar, rejissor – R. Həsənoğlu, baş rolda – R. Balayev) və yaxud 1941-ci ildə çəkilən "Səbuhi" filminə (ssenari müəllifi – M. Rəfili, rejissor – R. Təhmasib, baş rolda – İ. Dağıstanlı), dramaturqun "Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" əsəri öyrənildiyinə görə "Dərviş Parisi partladır" filminə (ssenari müəllifi – Ə. Qulubəyov, rejissorlar - K. Rüstəmbəyov, Ş. Mahmudbəyov, rollarda – S. Yurski, M. Babayev, A. İsgəndərov, H. Turabov, L. Bədəlbəyli, Ə. Həsənov) kino-teatrlarda baxış təşkil olunur.

XI sinifdə "Cəlil Məmməquluzadənin həyatı, yaradıcılıq yolu" mövzusunun tədrisində - "Anamım kitabı" (1994, rejissor R. Almuradlı, rollarda: L. Əliyeva, H. Mürvətova, C. Namiq Kamaloğlu, K. Abdullayev və F. Vəliyev), "Quzu" qısametrajlı bədii televiziya filmi (1967, ssenari müəllifi: F. Ağayev, rejissor İ. Səfərəlibəyov), "Poçt qutusu" (1967-ci il, ssenari müəllifi və rejissor: R. Kazımovski, Novruzəli – İ. Osmanlı, xan – A. Gəraybəyli); "Hüseyn Cavidin həyatı, yaradıcılıq yolu" mövzusu öyrənilərkən – "Cavid ömrü" (2007, ssenari

müəllifi: Anar, rejissor R. Həsənoğlu, rollarda: Cavid – R. Balayev, Mircəfər Bağırov – R. Novruz, iblis, gürcü və erməni keşişi – M. Səfa)"; "Cəfər Cabbarlının həyatı, yaradıcılıq yolu" mövzusu ilə tanışlıq zamanı "Sevil" filmi (1970, ssenari müəllifi: V. Qorikker, A. Donatov, T. Əyyubov, rejissor- V. Qorikker); Səməd Vurğunun həyatı, yaradıcılıq yolu" mövzusu keçilərkən – "Yeddi oğul istərəm" (1970, ssenari müəllifi: Yə Səmədoölu, rejissor – T. Tağızadə, rollarda: H. Məmmədov, H. Turabov və b.) və "Aygün" (1960, ssenari müəllifi və rejissor – K. Rüstəmbəyov, rollarda: H. Salayev, N. Məlikova) filmləri; "Mir Cəlalın həyatı, yaradıcılıq yolu" mövzusu öyrənilərkən – "Kəmtərovlar ailəsi" hekayəsi əsasında çəkilən "İki yad adam" filmi (ssenari müəllifi: N. Dadaşov, prodüser: A. Həsənov, rollarda: G. Baxşıyeva, D Dəvəli və b.), "Üç zirvənin fatehi – Mir Cəlal Paşayev" filmi (ssenari müəllifi S. Elcanlı, rejissor – E. Babayev); "İlyas Əfəndiyevin həyatı, yaradıcılıq yolu"nun tədrisi zamanı – "Gözlə məni" (1980, ssenari müəllifi – Elçin, E. Lindina, rejissor – K. Rüstəmbəyov, rollarda: R. Balayev, T. Yandiyeva, H. Turabov, A. Pənahova, H. Məmmədov və b.); İsmayıl Şıxlının həyatı, yaradıcılıq yolu" mövzusunun öyrənilməsi zamanı "Dəli Kür" (1969, ssenari müəllifi: İsmayıl Şıxlı, rejissor – H. Seyidzadə, rollarda: Cahandar ağa – Ə. Abbasov, Zərnigar – L. Bədirbəyli, Molla Sadıq - M. Dadaşov) və b. nümayiş etdirilə bilər.

Məktəbdənkənar iş məzmununa görə də təlim prosesindən fərqlənir. Bir çox hallarda məktəbdənkənar tədbirlərin məzmununda təlim prosesində, yaxud sinifdənxaric tədbirlər zamanı nəzərdən keçirilməyən məsələlər əhatə olunur.

Sinifdənxaric işdə olduğu kimi məktəbdənkənar işin təşkilinin formaları da özünəməxsusdur. Məktəbdənkənar işin davametmə müddəti tədbirin məzmunundan və xarakterindən asılıdır. Təlim prosesində müəllim fənnin ayrı-ayrı mövzuları barədə şagirdlərə zəruri biliklər verən, həyati bacarıqlar aşılayan şəxsdirsə, məktəbdənkənar tədbirlər zamanı uşaqların müstəqil işlərinin və asudə vaxtlarının təşkilatçısı və rəhbəri funksiyasını yerinə yetirir.

Məktəbdənkənar tədbirlərin təşkilində aşağıdakı prinsiplərdən faydalanmaq məsləhətdir:

1) şagirdlərin könüllülüyü;

2) tədbirin şəxsiyyətyönlü və sosialyönlü xarakter daşıması;

3) şagirdlərin təşəbbüskarlığına və özfəaliyyətinə əsaslanma;

4) oyun metodlarından istifadə etməklə məktəbdənkənar işin intellektual məzmuna malik olması;

5) şagirdlərin fəallığının, məqsədyönlülüyünün, təşəbbüskarlığının stimullaşdırılması;

6) dərnəklərin, studiyaların, bölmələrin, klubların, cədvəllərinə uyğun olaraq, sistemli məşğələlərin təşkili;

7) kütləvilik (daha çox şagirdi tərbiyə işinin müxtəlif növləri ilə əhatə etmək);

8) şagirdlərin fərdi, yaş xüsusiyyətlərini, imkanlarını, maraq, meyil və cəhdlərini nəzərə almaq;

9) tərbiyə işinin bütün növlərinin qarşılıqlı əlaqəsi və varisliyi;

Göstərilən prinsiplərə əməl olunması tərbiyə işinin səmərəliliyinin zəruri şərti kimi nəzərdən keçirilə bilər.

**Məqalənin aktuallığı.** Məktəbdənkənar tədbirlər zamanı yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması problemi müasir günümüzdə aktuallıq daşıyır.

**Məqalənin elmi yeniliyi.** Məktəbdənkənar tədbirlər zamanı yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması diqqət mərkəzinə gətirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə gənc tədqiqatçılar, ümumtəhsil məktəblərinin müəllimləri üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. A.N. Abbasov. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013.
2. Bəxtiyat Vahabzadə. Şəhidlər. http://1905.az/bəxtiyar-vahabzadə-səhidlər/
3. S. Əliyev, B. Həsənov, A. Mustafayeva. Ədəbiyyat: Ümumtəhsil məktəblərinin X sinifləri üçün dərslik. Bakı: Bakınəşr, 2017.
4. İ. Həbibbəyli, S. Əliyev, B. Həsənov. A. Mustafayeva. Ədəbiyyat: Ümumtəhsil məktəblərinin XI sinifləri üçün dərslik. Bakı: Bakınəşr, 2018.

**Э. Гусейнова**

## Внешкольная работа как средство формировании активной гражданской позиции у учащихся 10-11 классов

## Резюме

Формирование активной гражданской позиции старшеклассников должна быть всесторонне изучена. Работа в этой области, при поддержке семьи, родителей должна быть продолжена и в общеобразовательных школах. В школах недостаточно использование возможностей учебного процесса, необходимо также обратиться к внешкольным мероприятиям. Важно соблюдение преемственности между учебным процессом и внешкольной работой. В статье рассматривается формирования активной гражданской позиции старшеклассников во время внешкольных мероприятий. Статья может быть полезна молодым исследователям, учителям общеобразовательных школ.

**E. Huseynova**

## Extracurricular work as a means of shaping an active citizenship among students in grades 10-11

## Summary

Formation of an active citizenship of high school students should be comprehensively studied. Work in this area, with the support of the family and parents, should be continued in secondary schools. The use of educational opportunities is not enough in schools, it is also necessary to turn to extracurricular activities. It is important to respect the continuity between the educational process and extracurricular work. The article discusses the formation of an active citizenship of high school students during extracurricular activities. The article may be useful to young researchers, teachers of secondary schools.

**Redaksiyaya daxil olub:** 15.05.2019